# Seçkilər yaxınlaşdıqca fəallıq da yüksəlir

**Ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən növbədənkənar parlament seçkilərinə bir aydan da az vaxt qalır. Hazırda seçki məntəqələrində gərgin hazırlıq işləri gedir. Deməkolar ki, seçicilərin sərbəst, şəffaf şəraitdə istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılır.**



Gəncədə fəaliyyət göstərən 38 saylı Gəncə I seçki dairəsində də hazırlıq işləri mütəşəkkilliklə davam etdirilir. Dairə seçki komissiyasının sədri İbrahim Cəfərovla söhbət zamanı məlum oldu ki, sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərə hazırlıq işləri yüksək səviyyədə görülür. Dairəni əhatə edən 38 seçki məntəqəsinin hamısında seçicilərin istədikləri namizədə sərbəst şəkildə səs vermələri üçün lazımi şərait yaradılmışdır. Seçkilərə 5 gün qalmış isə daha 1 qapalı seçki məntəqəsi yaradılacaqdır. Ümumilikdə seçki dairəsini əhatə edən məntəqələrdə qeydə alınan 52 mindən artıq seçicinin sərbəst şəkildə öz iradələrinə uyğun iştirakı təmin ediləcəkdir.

Onu da öyrəndik ki, seçki məntəqələrinin hamısında təmir işləri aparılmış, məntəqələr lazımi avadanlıqlarla, rabitə və digər texniki vasitələrlə, eləcə də seçkilərin keçirilməsi üçün təlimatlarla təmin edilmişdir. Səsvermənin gedişini izləmək üçün 13 seçki məntəqəsində veb-kamera da quraşdırılmışdır. Seçkiqabağı təşviqatın aparılması, habelə təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün məntəqələrin ərazilərində müvafiq yerlər də ayrılmışdır. Bundan başqa, məntəqə seçki komissiyasının sədrlərinin Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi kurslarda iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasının sədri onu da əlavə etdi ki, əvvəlki seçkilərdən fərqli olaraq bu seçkilərdə həm ilk dəfə səs verənlərin, həm də yaşı 80-ni keçmiş insanların sayında artım qeydə alınmışdır. Belə ki, sentyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərdə 1000 nəfərdən çox ilk dəfə səs verənlər, 500 nəfərdən artıq isə yaşı 80-ni ötmüş seçici qeydə alınmışdır.

Dairəni əhatə edən seçki məntəqələrinin əksəriyyətində hərəkəti məhdud olan seçicilər üçün panduslar quraşdırılmış, seçkilərin mütəşəkkil keçməsi üçün bütün seçki məntəqələri elektrik generatorları ilə təmin edilmişdir. Hazırda seçici siyahılarında dəqiqləşdirmə aparılır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 4 avqust (№ 164).- S.4.